**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 13 yanvar tarixli 5 nömrəli Qərarı ilə təsdiq edilmiş “Ümumtəhsil məktəbinin Nümunəvi Nizamnaməsi”ndə dəyişiklik edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Təhsil Nazirliyinin təklifinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 13 yanvar tarixli 5 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, 1, maddə 58; 2012, 1, maddə 34, 10, maddə 1007; 2014, 10, maddə 1329; 2015, 12, maddə 1562; 2016, 7, maddə 1351, 10, maddə 1717; 2017, 4, maddə 612, 12 (II kitab), maddələr 2519, 2535; 2018, 5, maddə 1144, 11, maddə 2429) ilə təsdiq edilmiş “Ümumtəhsil məktəbinin Nümunəvi Nizamnaməsi”ndə aşağıdakı dəyişikliklər edilsin:

1.1. 4.9-cu bənd aşağıdakı redaksiyada verilsin:

“4.9. Ümumtəhsil məktəbində tədris ilinin müddəti Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilir.”;

1.2. 4.10-4.12-ci bəndlər ləğv edilsin.

2. Bu Qərar 2020-ci il sentyabrın 15-dən qüvvəyə minir.

**Əli ƏSƏDOV**
**Azərbaycan Respublikasının Baş Naziri**

Bakı şəhəri, 12 mart 2020-ci il
89